# Professor Qəzənfər Kazımovun kitablarının təqdimatı

İyunun 12-də AMEA-nın "Kitab evi"ndə Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Qəzənfər Şirin oğlu Kazımovun "Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər)", "Azərbaycan dilinin tarixi sintaksisi" və "Azərbaycan dilinin qram matikası" kitablarının təqdimatı keçirildi. Konfransı giriş sözü ilə AMEA-nın vitseprezidenti, akademik İsa Həbibbəyli açaraq dedi: - Professor Qəzənfər Kazımovun yaradıcılığında dilçilik istiqamətində tarixi təfəkkürlə müasir təfəkkür birləşir. Milliləşmə, azərbaycanlaşma prosesi gedir. Bu cəhətdən Qəzənfər müəllim bir nümunədir. Azərbaycan dilinin formalaşması Azərbaycan xalqının milli və dövlətçilik maraqlarına tam cavab verir. Onun elmi mövqeyi düzdür: milli və dövlətçilik maraqlarımıza uyğundur. Hara qədər mümkündürsə, ora qədər gedir Qəzənfər müəllim. Dilimizi Şumerlərlə əlaqələndirmək baxımından Q.Kazımov birinci deyildir. Lakin Qəzənfər müəllim bunu bir dilçi kimi uğurla həll etməyi bacarıb. Türkdilli xalqlar içərisində Azərbaycan xüsusi olaraq seçilir. Belə ki, bizdə Nəsimi adına Dilçilik İnstitutunda, Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Pedaqoji Universitetində artıq tamamilə yetkin dilçilik məktəbləri var. Və hərəsi özünəməxsus ucalığa malikdir. Məhz sovet zamanında "Sovetskaya tyurkologiya" jurnalının Bakıda çap olunması İttifaq miqyasında Azərbaycan dilçilik elminə olan böyük hörmətin ifadəsi idi. Qəzənfər Kazımovun əsərləri Azər-baycanda müstəqillik dövrünün funda-mental dilçilik elminin qiymətli nümunələridir. Bir şeyi də xüsusi qeyd edim ki, dildə, dilçilikdə müşahidə də mənbədir. Yazıçılar öz əsərlərində müşahidə



üsulundan daha çox istifadə edirlər, yararlanırlar. Professor Qəzənfər Ka-zımov da tələffüzdəki ən xırda incəlikləri müşahidə edir, hiss edir, yaşayır və əsərlərində yaşadır. Onda yumor da var, eyni zamanda ciddi elmi-nəzəri baxışla aydın şəkildə görüb qiymətləndirmək bacarığı da var. Bu gün Qəzənfər Kazımov yeni bir dilçilik məktəbi formalaşdırır; milli və dövlətçilik maraqlarımıza uyğun gələn özünəməxsus elmi mövqeyə malik dilçilik məktəbi. İnanıram ki, bu istiqamətdə yeni dilçilər yetişəcəkdir. Qəzənfər müəllimə öz yolunu səmərəli şəkildə uğurla davam etdirməsini arzulayıram.

Professor Qəzənfər Paşayev çıxış edib bildirdi ki, mən çox az adama həsəd aparmışam. Ancaq Qəzənfər müəllimə həsəd aparmışam. Onun çox zəngin kitabxanası var. Çox böyük təfəkkür, istedad sahibidir. Akademik İsa Həbibbəyli təkcə bir ədəbiyyatşünas kimi yox, dilçi kimi onun yaradıcıllığına böyük qiymət verdi. Mənim namizədlik dissertasiyam dildən, doktorluğum isə ədəbiyyatdan olub. Mən indi də dilçilik istiqamətində Qəzənfər müəllimdən məsləhətlər alıram. O, Ə.Dəmirçizadə məktəbi keçib, onun layiqli davamçısıdır. Onun bu gün təqdimatına toplaşdığımız üç kitabının hər birini şah əsəri hesab edirəm. Dilçilik elmimiz üçün çox böyük iş, nəhəng abidə hesab edirəm.

Akademik Nizami Cəfərov: İltisaqi dillərin qrammatikası necə olmalıdır sualını öz əsərlərində şərh edib əsaslandıran Qəzənfər Kazımov qrammatika sahəsində liderdir, - deyərək dəyərli və məzmunlu fikirlər səsləndirdi.

Filologiya elmləri doktoru, "Qədim dillər" şöbəsinin müdiri, professor İlhami Cəfərsoy "Türk tayfa dillərinin ümumxalq dili şəklində təmərküzləşməsi tarixinin tədqiqi," professor, Müasir Azərbaycan dili şöbəsinin müdiri İsmayıl Kazımov "Ümumxalq ədəbi dili sintaktik quruluşunun inkişaf yolunun tədqiqi", professor Tofiq Müzəfəroğlu "Milli ədəbi dilimizin qrammatik quruluşunun tədqiqi " mövzularında məruzələr edib, professor Qəzənfər Kazımovun yara-dıcılıq irsini müxtəlif rakurslardan dəyərləndirdilər. Qeyd olundu ki, burada təqdimatı keçirdilən üç möhtəşəm əsərin hər biri ayrı-ayrı adlarda çap olunsalar da, biri digərinin davamı kimidir. Burada tayfa dillərinin ümumxalq dilinə, ümumxalq dilinin milli dilə keçməsi əsaslandırılır. Sintaksis bir məntiqdir, sintaksis bir qurmadır. Əgər nəyisə qura bilirsənsə, demək, onda məntiqi təfəkkür var. Morfologiya ilə sintaksisi Qəzənfər müəllim bir-biri ilə birləşdirir, onları bir-birindən ayırmaq olmaz. Qrammatika bunların bütövlüyüdür. Qəzənfər müəllim bu kitablarda məsələləri qoyur, şərhini verir və sonda isə özünün əsas şəxsi fikrini ortaya qoyur.

"Kredo" qəzetinin baş redaktoru, şair-publisist Əli Rza Xələfli çıxışında Qəzənfər müəllimin atası Şirin kişinin 1930-cu illərin axırları Cəbrayıl maarifinə rəhbərlik eləməsini, səxavəti ilə ad çıxardığını, daha sonra Böyük Vətən müharibəsinə gedib qəhrəmancasına həlak olmasını və s. məqamları xatırlatdı, institutda oxuduğu illərdə Qəzənfər müəllimin ona dərs dediyi vaxtlara nə-zər saldı və sevimli müəlliminə yaradıcılıq uğurları arzuladı.

Məruzələr ətrafında çıxışlar başlandı. Akademik Möhsün Nağısoylu Qəzənfər Kazımovun əsərlərinin əhəmiyyətindən söz açıb, onların elmi təhlilini verdi, sonra sözü çıxışçılara verdi. Professorlar Şirindil Alışanlı, Sayalı Sadıqova, Ramiz Əsgər, Mirvari İsmayılova, Mahirə Hüseynova, İsmayıl Məmmədli, Nizami Xudiyev, İslam Qəribli, Aslan Salmansoy, yazıçı, filologiya elmləri doktoru Yasif Nəsirli, Fəlsəfə İnstitutunun əməkdaşı Ruşan Ruşanzadə, şair Oqtay Zəngilanlı və başqaları çıxışlarında Qəzənfər müəllimin bu dillə yaşadığını və bu dili də yaşatdığını vurğuladılar. Axırda professor Qəzənfər Kazımov çıxış etdi, Azərbaycan xalqının etnogenezi məsələlərindən, ilkin söz köklərinin parçalanmasından, dialektlərə parçalanmasından, prototürk dili məsə-ləsindən və s. söhbət açdı, öz elmi qənaətlərini bölüşdü.

***Şakir ƏLİFOĞLU***